# Abdulla Şaiqin Mənzil Muzeyində ədibin vəfatının 60 illiyinə həsr edilmiş tədbir



15 oktyabr 2019-cu ildə Abdulla Şaiqin Mənzil Muzeyində ədibin vəfatının 60 illiyinə həsr edilmiş tədbir keçirildi. “Abdulla Şaiq “Türk ocağı”nın qurucularından biri kimi” adlı tədbir Azərbaycanda bərpa edilmiş “Türk ocağı” cəmiyyəti ilə birgə təşkil edilib.

3 iyul 1911-ci ildə Məhəmməd Əmin Yurdaqul, Akçura oğlu Yusif, M.Ə.Tevfiq (Yüksələn), Emin Bülənt Sərdaroğlu və Əhməd bəy Ağaoğlu tərəfindən Osmanlıda əsası qoyulmuş “Türk ocağı” türkçülük ideyalarını təbliğ edən bir cəmiyyət olmuşdur. İstanbulda yaradılan bu cəmiyyətin şöbələri çox keçməmiş Türkiyənin bir çox bölgələrində də yaradılmışdır. Cəmiyyətin bir şöbəsi 1918-ci ildə Azərbaycanda fəaliyyətə başlamışdır. “Türk ocağı”nın Azərbaycan şöbəsinin yaradıcıları Abdulla Şaiq, Əhməd Cavad və Tağı Nağızadə olmuşlar.

Anım gününə həsr olunmuş tədbirdə “Şərq” qəzetinin baş redaktoru, “Türk ocağı” cəmiyyətinin sədri t.ü.f.d. Akif Aşırlı; t.ü.f.d., dosent, Firdövsiyə Əhmədova; cəmiyyətin üzvləri; Bakı muzeylərinin əməkdaşları, ADMİU, BDU və ADU-nun müəllimləri və A.Şaiq adına kitabxananın nümayəndələri iştirak etdilər.

Tədbiri giriş sözü ilə muzeyin direktoru sənətşünaslıq namizədi Ülkər xanım Talıbzadə açdı. O, qonaqları salamladıqdan sonra tədbirin iki hissədən ibarət olacağını açıqladı. Birinci hissə A.Şaiqin anım gününə, ikinci hissə “Türk ocağı” cəmiyyətinin fəaliyyətinə həsr edildi. Ülkər xanım Akif Aşırlıya Abdulla Şaiqin fəaliyyətinə dair yeni bir fakt - ədibin “Türk ocağı”nın qurucularından biri kimi fəaliyyətini meydana çıxardığı üçün təşəkkürünü bildirdi.

Tədbir muzeyin böyük elmi işçisi fil.ü.f.d. Arzu Hacıyevanın “Abdulla Şaiq - milli ideoloq kimi” adlı məruzəsinin dinlənilməsi ilə davam etdi. Şaiq irsinin tədqiqatçısı milli ideologiyanın formalaşdırılmasında Şaiqin misilsiz xidmətlərindən danışdı. Milli təhsilin başlanğıcını təşkil edən Şaiq Nümunə Məktəbinin fəaliyyətindən, yetirmələrindən söz açdı.

Tədbirdə Abdulla Şaiqin həyat və fəaliyyətini əks etdirən slayd-şou nümayiş etdirildi. Bədii hissədə muzeyin əməkdaşları - Elminaz Məmmədli A.Şaiqin “Türk müsavat firqəsinə ithaf - Marş”, Fəridə Məmmədova “Neçin böylə gecikdin?” şeirlərini səsləndirdilər.

Sonda Ülkər xanım Talıbzadə tədbirdə iştirak edənlərə öz minnətdarlığını bildirdi.

Kaspi 2019.- 19-21 oktyabr.- S.9.